*UOT 372.881.111.1*

***Şahnaz Ağasəməd qızı Abdullayeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*
https://orcid.org/0000-0003-2861-6045

# VII SİNİF İNGİLİS DİLİ DƏRSLİYİNDƏ MİLLİ VƏ ÜMUMBƏŞƏRİ DƏYƏRLƏR

***Шахназ Агасамед гызы Абдуллаева***
*докторант по программе доктора философии*
*Бакинский Государственный Университет*

# НАЦИОНАЛЬНЫЕ И ОБЩЕОБРАЗОВЫЕ ЦЕННОСТИ В УЧЕБНИКЕ АНГЛИЙСКОГО ЯЗЫКА ДЛЯ VII КЛАССА

***Shahnaz Aghasamed Abdullayeva***
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

# NATIONAL AND UNIVERSAL VALUES IN THE GRADE VII ENGLISH TEXTBOOK

**Xülasə.** Məqalədə milli və ümumbəşəri dəyərlər, məktəblilərin milli və ümumbəşəri dəyərlərə məhəbbət ruhunda tərbiyəsi araşdırılmışdır və bu məqsədlə 7-ci sinif şagirdlərinə milli və ümumbəşəri dəyərlərin aşılanmasında 7-ci sinif ingilis dili dərsliyinin rolu dəyərləndirilmişdir. Üç müəllifin (Könül Heydərova, Günay Qurbanova və Sevinc Məmmədova) birgə ərsəyə gətirdiyi ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün ingilis dili (əsas xarici dil) fənni üzrə dərslik 12 avqust 2022-ci ildə əlyazma halında yığılmış və çapa imzalanmışdır. Ümumi təhsil müəssisələri üçün bütün dərsliklər kimi ingilis dili dərsliyi də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" sənədinə və "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu)"na əsasən hazırlanmışdır. Məqalə boyu həmin sənədlərdə milli və ümumbəşəri dəyərlərin dərsliklərdə əks olunması haqqında qoyulmuş tələblər və həmin dəyərlərin və tələblərin 7-ci sinif ingilis dili dərsliyində necə əks olunduğundan bəhs olunur.
***Açar sözlər:*** *dərsliklər, milli dəyərlər, ümumbəşəri dəyərlər, şagird, tələb*

**Резюме.** В статье исследованы национальные и общечеловеческие ценности, воспитание школьников в духе любви к национальным и общечеловеческим ценностям. С этой целью была оценена роль учебника английского языка для 7 класса. Учебник по английскому языку (основному иностранному языку) для 7 класса общеобразовательных учреждений, созданный совместно тремя авторами (Кёнуль Гейдарова, Гюнай Гурбанова и Севиндж Мамедова), был составлен и подписан в рукописном виде 12 августа 2022 года. Как и все учебники для общеобразовательных учреждений, учебник английского языка также соответствует документу «Государственные стандарты общего образования в Азербайджанской Республике», утвержденному постановлением Кабинета Министров Азербайджанской Республики от 29 сентября 2020 года № 10. 361 и «Образовательная программа по предметам иностранного языка для общеобразовательных школ Азербайджанской Республики (курикулум)». На протяжении всей статьи обсуждаются установленные в этих документах требования об отражении национальных и общечеловеческих ценностей в учебниках и то, как эти ценности и требования представлены в учебнике английского языка для 7 класса.
***Ключевые слова***: *учебники, национальные ценности, общечеловеческие ценности, ученик, требование*

**Summary.** In the article, national and universal values, education of schoolchildren in the spirit of love for national and universal values were investigated, and for this purpose, the role of the 7th grade English

textbook in instilling national and universal values in the 7th grade students was evaluated. The textbook on English (the main foreign language) for the 7th grade of general educational institutions, which was jointly created by three authors (Kunul Heydarova, Gunay Gurbanova and Sevinj Mammadova), was compiled and signed in manuscript form on August 12, 2022. Like all textbooks for general educational institutions, the English language textbook also complies with the document "State standards of general education in the Republic of Azerbaijan" approved by the decision of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated September 29, 2020 No. 361 and "Education program for foreign language subjects for general education schools of the Republic of Azerbaijan (curriculum)" Throughout the article, the requirements set in those documents about the reflection of national and universal values in textbooks and how those values and requirements are reflected in the 7th grade English language textbook are discussed.

***Key words:*** *textbooks, national values, universal values, student, demand*

"Dəyər nədir?" sualına bir çox perspektivdən cavab tapmaq olar. Dəyər termininə həm pedaqogikada, həm də fəlsəfədə rast gəlinir. Ümumiyyətlə, dəyərləri öyrənən fəlsəfi təlimə aksiologiya deyilir. Aksiologiya sözü iki sözün birləşməsindən yaranmışdır, "axia" dəyər, "loqos" isə təlim deməkdir. Dəyər sözü yunanlara qədim dövrdən tanış olsa da, bu sözə fəlsəfədə ilk dəfə XX əsrdə filosofların nəzəriyyələrində rast gəlmək olar. Dəyəri pedaqoji termin kimi izah etdikdə isə onu "interpretasiya" adlandırmaq olar[1]. İnterpretasiya latın mənşəli söz olub, mənası izah, təfsir və şərh kimi izah olunur.

"Beynəlxalq dəyərlər" termini qlobal miqyasda geniş şəkildə tanınan və xalqlar arasında paylaşılan prinsiplərə, normalara və inanclara aiddir. Bu dəyərlər beynəlxalq qarşılıqlı fəaliyyət, əməkdaşlıq və ölkələr arasında davranışa rəhbərlik edən normaların yaradılması üçün ümumi çərçivə təmin edir. Xüsusi beynəlxalq dəyərlər fərqli ola bilsə də, beynəlxalq arenada, ümumiyyətlə, vacib hesab edilən bir neçə əsas prinsip var. Bunlara daxildir: suverenliyə hörmət, dinc yaşamaq, insan hüquqları, qanunun aliliyi, əməkdaşlıq və çoxtərəflilik və davamlı inkişaf.

Milli dəyərlər dedikdə isə müəyyən bir xalq və ya ölkə tərəfindən geniş şəkildə qəbul edilən və mənimsənilən prinsiplər, inanclar və ideallar nəzərdə tutulur. Bu dəyərlər bir xalqın kollektiv kimliyini, mədəni irsini və xalqın ümumi istəklərini təmsil edir. Milli dəyərlər çox vaxt vətənpərvərlik, milli birlik, mədəni müxtəlifliyə hörmət, ictimai harmoniya, bərabərlik, ədalət, azadlıq, demokratiya, ölkənin tarixi və adət-ənənələrinin qorunub saxlanması kimi anlayışları əhatə edir.

Bu dəyərlər cəmiyyət daxilində fərdlərin davranışları, münasibətləri və qarşılıqlı əlaqələri üçün rəhbər çərçivə rolunu oynayır, onlarda aidiyyət hissini formalaşdırır və bir vətəndaş kimi hərəkətlərinə təsir göstərir. Milli dəyərlər bir millətin sosial, siyasi və iqtisadi inkişafının formalaşmasında, həmçinin vahid və inklüziv cəmiyyətin inkişafında mühüm rol oynaya bilər.

Qeyd etmək vacibdir ki, milli dəyərlər hər bir xalqın özünəməxsus xüsusiyyətlərini və prioritetlərini əks etdirən müxtəlif ölkələr və mədəniyyətlər arasında dəyişir və əsasən, xalqların tarixi keçmişindən bəhrələnir. Azərbaycan türk mənşəli qədim xalqların yaşayış məskəni olmuş, bununla bərabər, türklər burada həmişə müxtəlif etnik tayfalarla qonşuluq və dostluq münasibətində yaşamışlar. Elə bundan irəli gəlir ki, Azərbaycanın milli dəyərləri onun tarixi, mədəniyyəti, adət-ənənələri ilə formalaşmış və zənginləşmişdir. Bu dəyərlər Azərbaycan xalqının geniş şəkildə qəbul etdiyi arzuları, prinsipləri və inancları əks etdirir. Azərbaycanın tarix qoxulu milli dəyərlərinə nümunə olaraq aşağıdakıları qeyd etmək olar: milli qürur və vətənpərvərlik, mədəni müxtəliflik və tolerantlıq, milli birlik və həmrəylik, böyüklərə hörmət və ailə dəyərlərinə hörmət, qonaqpərvərlik və alicənablıq.

Azərbaycanın milli dəyərlərindən yalnız bəzi nümunələr yuxarıda sadalansa da, Azərbaycanın ümumilikdə saydıqca bitməyən milli dəyərləri vardır.

Dərsliyi təhlil etməzdən əvvəl dərsliklərin yazılması prosesi və onlara verilən tələblərə nəzər salaq. Dərsliklər "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2020-ci il tarixli 67 nömrəli qərarı əsasında hazırlanır. Qərara əsasən ümumi təhsil müəssisələrində istifadə edilməsi üçün dərsliklərin təsdiqlənməsi, onlara qrif verilməsi yolu ilə elektron şəkildə həyata

keçirilir. Dərslik ümumi təhsil müəssisəsinin müraciəti və ya Elm və Təhsil Nazirliyinin təşəbbüsü əsasında baş tutur. Dərsliyin qiymətləndirilməsi Nazirlik tərəfindən müvafiq sahədə 10 (on) ildən artıq pedaqoji təcrübəsi və ya elmi dərəcəsi olan ən azı 3 (üç) nəfər mütəxəssis cəlb edilərək həyata keçirilir. Bu prosesin vaxtı təxminən 2 (iki) ay çəkir və qiymətləndirmə 100 ballıq şkala üzrə meyarlar əsasında aparılır. Bu meyarlara əsasən dərsliyin təhsil proqramına (kurikuluma) uyğunluğu (30 bal); dərsliyə daxil edilmiş materialların elmi etibarlılığı, dəqiqliyi, inkişafyönlülüyü, tərbiyəyönlülüyü, dəyəryönlülüyü, şagirdlərin yaş xüsusiyyətlərinə uyğunluğu (40 bal); dərslikdə nəzərdə tutulan pedaqoji və metodiki yanaşmaların qabaqcıl nəzəriyyələrə uyğunluğu (20 bal); dizayn və tərtibatın məntiqliyi, estetikliyi və müasirliyi (10 bal) qiymətləndirilir.

Dərslik qiymətləndirildiyi hər bir meyar üzrə maksimal balın ən azı 80 faizini topladığı halda ona qrif verilir. Dərsliyə qrifin verilməsi Təhsil Nazirliyinin əmri ilə rəsmiləşdirilərək istifadəyə verilir. Nəşrə verilmiş dərsliyin məzmunu qrifin verildiyi tarixdən sonrakı 5 (beş) tədris ili ərzində istifadəyə yararlı hesab olunur. Yəni dərsliklər başqa bir halla qarşılaşmadığı təqdirdə 5 il müddətində istifadəyə yararlı olur. Başqa sözlə, dərsliklər minimum hər beş ildən bir yenilənir [9]. Dərsliklər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” sənədinə və "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu)"na əsasən hazırlanır. 361 nömrəli qərara əsasən, ümumi təhsil pilləsində formalaşdırılan səriştələr aşağıdakı təsnifata uyğun və cədvəldə qeyd olunan təhsil səviyyələri üzrə qruplaşdırılır [10]:

1) təfəkkürlə bağlı səriştələr – yaradıcılıq (kreativlik), tənqidi təfəkkür, problem həlletmə, qərar qəbuletmə, müstəqil öyrənmə;

2) fəaliyyətlə bağlı səriştələr – ünsiyyət, əməkdaşlıq, rəqəmsal savadlılıq, informasiya savadlılığı, maliyyə savadlılığı;

3) dəyərlər – milli kimliyin dərki və milli iftixar hissi, fəal vətəndaş mövqeyi, şəxsi və sosial məsuliyyət, demokratiya və insan hüquqlarına hörmət, mədəni müxtəlifliyə hörmət.

Dərsliklərdə dəyərlərin əks olunmasına verilən tələblər isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” sənədinə əsasən aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| | | | | | |
|---|---|---|---|---|---|
| Dəyərlər | milli kimliyin dərki və milli iftixar hissi | dövlət rəmzlərini tanıyır | dövlət rəmzlərinə hörmət nümayiş etdirir | azərbaycançılıq ideyalarını mənimsədiyini nümayiş etdirir | azərbaycançılıq ideyalarını təbliğ edir |
| | fəal vətəndaş mövqeyi | yaşadığı bölgə və ölkə haqqında məlumatlıdır | dövlət və dövlətçilik ənənələri barədə məlumatlıdır | dövlət maraqlarının müdafiəsində öz rolunu dərk edir | dövlət maraqlarını müdafiə edir |
| | şəxsi və sosial məsuliyyət | davranış mədəniyyəti haqqında məlumatlıdır | şəxsi məsuliyyətini dərk edir | şəxs-cəmiyyət münasibətlərini şərh edir, cəmiyyət qarşısında məsuliyyətini dəyərləndirir | cəmiyyət qarşısında məsuliyyətini şərh edir, sosial layihələrdə iştirak edir, könüllülük fəaliyyəti ilə məşğul olur |

| | | | | | |
|---|---|---|---|---|---|
| | demokratiya və insan hüquqlarına hörmət | insan hüquqları barədə təsəvvürə malikdir | öz hüquqlarını və vəzifələrini bilir, digər insanların hüquq və vəzifələrinə hörmət nümayiş etdirir | insan hüquq və azadlıqlarının mahiyyətini dərk edir | insan hüquq və azadlıqlarını müdafiə edir |
| | mədəni müxtəlifliyə hörmət | mədəni müxtəliflik barədə məlumatlıdır | mədəni müxtəlifliyi (müxtəlif etnik qruplar, dillər, dinlər, irqlərə mənsub insanlar) qəbul edir | birgə yaşayış qaydalarına əməl edir | ayrı-seçkiliyin yolverilməzliyini əsaslandırır |

Cədvəldə milli kimliyin dərki, fəal vətəndaş mövqeyi kimi milli dəyərlərə xas olan dəyərlərlə yanaşı, həm də şəxsi və sosial məsuliyyət, demokratiya və insan hüquqlarına hörmət və tolerantlıq kimi ümumbəşəri dəyərlərə də yer verilmişdir.

5-ci sinif ingilis dili dərsliyində, demək olar ki, bütün mövzular dərslik boyu azərbaycanlı məktəblilərlə Azərbaycana qonaq gəlmiş xarici həmyaşıdlarının dialoqu üzərində cərəyan edir, məktəbli həmvətənlərimiz ölkəmizi həmin xarici həmyaşıdlarına təqdim edərək milli və ümumbəşəri mövzulara toxunurdularsa, 6-cı sinif ingilis dili dərsliyində isə həmin məktəblilərə mövzuların daxilindəki animasiyalarda rast gəlmək olurdu. 7-ci sinif ingilis dili dərsliyində də bu ardıcıllıq qorunaraq davam edir [2]. 7-ci sinif ingilis dili dərsliyi 6 mövzudan ibarətdir. Bunlara aiddir: “Dünyadakı məktəblər” (Schools around the world), “Texnologiya dünyası” (A world of technology), “Nə istedaddır!” (What a talent!), “Səyahət” (Travel), “Əbədi dostlar” (Friends forever) və “Gələcəkdə həyat” (Life in the future). [3]

Mövzuların hər birində, uyğun olaraq, milli və ümumbəşəri dəyərlər mövzusu öz aktuallığını qoruyur. Məsələn, birinci mövzuda, adından göründüyü kimi, dünyanın fərqli yerlərində olan müxtəlif tipli məktəblərdən və orada təhsil alan məktəblilərdən söhbət gedir. 6-7-ci səhifələrdə bəzi şagirdlər ölkələrinə və məktəblərinə məxsus problemləri bölüşür. Banqladeşdən olan Binita öz monoloqunda su qıtlığından söz açaraq sanki azərbaycanlı həmyaşıdlarını qlobal problemlər haqqında maarifləndirir. Çinli Fen isə vaxtilə ölkəsində məktəb infrastruktur çatışmazlığını vurğulayaraq, eyni zamanda, yaşıdlarını sahib olduqlarının dəyərini bilməyə səsləyir. Amerikalı Andryu və Nik isə məktəbliləri müasir və fərqli tipli məktəblər haqqında məlumatlandırır. Nikin məktəbində heç bir qayda olmadığı halda, Andryunun məktəbində dərsliklərin yerini elektron vəsaitlər əvəz edir. 9-cu səhifədəki danışıq bacarıqlarının inkişaf etdirilməsi üçün nəzərdə tutulmuş 4 nömrəli çalışmada da şagirdlər İsveç, Gürcüstan, Belçika və Hindistan məktəbləri barədə müzakirə aparırlar. Çalışmaların birində isə Elan və Meqan meşə daxilində yerləşən məktəb barəsində danışırlar [3, səh.10]. 12-ci səhifədə Nikin babası ilə dialoqundan qədimdə onların geniş ailə olmaqlarından və ölkələrində yaşlılar üçün nəzərdə tutulmuş universitetin mövcud olmağından xəbər tuturuq. Beləcə, bu tapşırıqlar şagirdləri eyni zamanda problemlər, fərqlilik və inkişaf haqqında düşünməyə və müqayisə aparmağa vadar edir. Beləliklə, şagirdlər şəxsi və sosial məsuliyyətlərini dərk edir, mədəni müxtəlifliyi dərk edərək hörmət edirlər.

Texnologiya haqqında olan 2-ci mövzu yeni texnoloji kəşflər edən insanlar və onların ixtiraları barədə məlumat verir. Sevindirici haldır ki, burada həmvətənlərimiz haqqında məlumatlar da öz əksini tapıb. Buna misal olaraq, yağış sularını enerjiyə çevirən və bu enerjini işıq-

landırma məqsədilə istifadə edən Reynerjinin (Rainergy) banisi, həmyerlimiz Reyhan Camalovanı göstərmək olar. Mətndə qeyd olunduğu kimi [3, s. 25], o, bu kəşfi kasıb ölkələri düşünərək edib. 32-ci səhifədə dinləmə bacarıqlarının inkişafı üçün nəzərdə tutulmuş tapşırıqlarda Aleksandr Qrem Bell, Mariya Küri, Tomas Alva Edison və Qalileo Qalileylə eyni cərgədə həmyerlimiz Tural Xuduyevin şəklini görmək qürurvericidir. O, dinləmə mətnində öz həyat tərzi və fəaliyyəti barədə danışır. Qeyd edək ki, elmi karyerasını Massaçusets Texnologiya İnstitutunda davam etdirən Tural Xuduyev bükümlü nanokabellərin işıq keçirməsini 20 faiz artırmağa nail olmaqla bərabər, bir çox başqa ixtiralarda da onun adı çəkilmişdir [11]. Beləcə, bu mövzu daxilində şagirdlərə yaşadığı ölkə və həmvətənləri haqqında məlumat verilərək fəal vətəndaşlıq mövqeyi aşılanır.

Mövzu 3 müxtəlif bacarıq haqqındadır. Bu mövzuda yer alan 48-ci səhifədəki mətndə Leyla öz rəfiqəsi üçün ad günü hədiyyəsi hazırlamağa çalışır. Lakin o, təkbaşına gəlinciyi toxuyub bitirə bilməzdi. Bu mətndə biz Leyla və onun ailəsi haqqında, ailəsində olan birlik, dəstək və cinsindən asılı olmayaraq, bütün ailənin Leylaya gəlinciyi toxumağa kömək etməsinin şahidi oluruq. Ailə dəyərlərinin Azərbaycan xalqı üçün çox vacib olduğunu, övladlar arasında cinsi ayrı-seçkilik olmadığı kimi, ailədə iş bölgüsünün də cinsi ayrı-seçkiliyə məruz qalmamasını, ailənin bir məqsəd uğrunda birləşərək iş bölgüsü aparması və bir-birinə dəstək olmasını bu mətn daxilində görmək olar. Bu mövzu dolayı yolla, insan hüquqlarına hörməti aşılayır. Səhifə 50-də Alina və Kamilin dialoqu Venesiya Biannalesində Azərbaycanı təmsil etmiş, fərqli üsluba malik, xalça dizaynı ilə məşğul olan müasir incəsənət rəssamı Faiq Əhməd haqqındadır. 57-ci səhifədə isə dinləmə tapşırığında milli musiqimizin incilərindən olan "Sarı gəlin" səsləndirilir. Şənliyə qoşula bilməyən Daniel həmin vaxt qrup layihəsinə hazırlaşmaq üçün dostları ilə görüşərək "Sarı gəlin" xalq mahnısını ifa edəcəyini deyir. Mahnı haqqında məlumat verən azərbaycanlı dostu həmin mahnını nənəsindən, nənəsinin də öz nənəsindən eşitdiyini vurğulayır. Beləliklə, bu mövzuda milli kimliyin dərki və milli iftixar hissi, dəyərlərin qorunması öz əksini tapır.

Səyahət haqqında olan 4-cü mövzu boyunca müxtəlif ölkələr və orada yerləşən görməli yerlər haqqında məlumat toplayan şagird 69-cu səhifəyə çatdıqda yenə öz vətəninə, milli dəyər və adət-ənənələrinə geri dönür. Şəkildə qədim adət-ənənələrimizi əks etdirən Novruz bayramının atributlarını, şəkərbura, paxlava və qoğalı görürük. Bundan əlavə, yaradıcılıq bacarıqlarını inkişaf etdirmək məqsədli olan həmin çalışmada şagirddən tarixi məkanlarımız, özünəməxsus təbiətimiz və mədəniyyətimiz haqqında da məlumat verməsi və müzakirə aparması tələb olunur. Şəkillərdə Azərbaycan xalqına məxsus qədim milli musiqi alətləri olan tar, saz, kamança, balaban və nağara əks olunmuşdur. Bu tapşırıq vasitəsilə şagird öz milli dəyərləri və mədəni sərvətləri haqqında ingilis dilində məlumat verməyi, deməli, öz mədəniyyətini dünyaya tanıtmağı öyrənir.

5-ci mövzu dostluq haqqındadır. Tarix boyu Azərbaycan qonşu dövlətlərlə dostluq mövqeyini qorusa da, bəzi dost bildiyimiz ölkələr bizim yağı düşmənimizə çevrilib. Lakin Azərbaycan yenə də öz tolerantlığından və humanistliyindən əl çəkməyib, 30 il ərzində tarixi torpaqlarımızı öz işğalı altında saxlayan Ermənistana humanist addım ataraq Azərbaycanın ərazi bütövlüyünü tanıdığı təqdirdə Azərbaycan torpağında ermənilərin yaşaya biləcəyini bildirərək yenə də öz humanizmini və qonaqpərvərliyini dünyaya nümayiş etdirib. 79-cu səhifədə Elay və Ayan, Lətifə və Xalidə haqqındakı mətndə də elə kiçik yaşdan necə dostcanlı və humanist olduğumuz bəlli olur.

"Gələcəkdə həyat" adlı 6-cı mövzu şagirdlərin təxəyyülünü inkişaf etdirir və gələcək barədə planlar qurmağa sövq edir. Mövzulardan əlavə, kitabda oxu bacarıqlarını inkişaf etdirmək məqsədli 3 hekayə də yer alır ki, bu hekayələr mənəvi dəyərlər haqqındadır. "Təşəkkürlər, cənab Falker" adlı birinci hekayənin müəllifi amerikalı məşhur yazıçı Patrika Polakkodur. Bu hekayədə o öz uşaqlıq illərindən, məktəb illərində oxuyub-yazma bacarıqlarına yiyələnə bilməyən "fərqli" şagird olmasından və müəlliminin onun həyatını necə dəyişməsindən bəhs edir. "Səndən daha yaxşı" adlı ikinci hekayədə müqayisənin, təkəbbürün və eqoistliyin pis vərdiş olması və bu cür pis vərdişlərin dostları özündən uzaqlaşdırması haqqındadır. "Hər xeyirxahlıq" adlı

üçüncü hekayədə isə göstərilir ki, dünyanı xeyirxahlıq dəyişir və bu dəyişimə özümüzdən başlamalıyıq. Vaxtında etmədiyimiz xeyirxahlıq bizə ancaq peşmanlıq gətirər, bu isə faydasız olar. Bundan əlavə, bu hekayələrdə dünya məktəblərində aktual problem olan bullinq mövzusuna toxunulmuşdur. Bununla da məktəblilərə birbaşa və ya dolayı yolla insan hüquqları haqqında məlumatlar, müxtəlifliyə və fərqliliyə hörmət, tolerantlıq hissi aşılanır.

7-ci sinif ingilis dili dərsliyində milli və ümumbəşəri dəyərlərin yer alması heç də təsadüfi deyil. Bütün bu məsələlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin birbaşa nəzarətindədir. Dərslikləri əhatə edən mövzular və standartlar qərarlar çərçivəsində nizamlanılır və dərsliklərin yazılma prinsipi həmin qərarlara əsasən tənzimlənir. Milli və ümumbəşəri dəyərlərin şagirdlərə aşılanması dərsliklərin yazılmasında irəli sürülən tələblər siyahısında ən mühüm yerdədir və məqalə boyu 7-ci sinif ingilis dili dərsliyinin təhlili zamanı dərslik müəlliflərinin hər bir incə məqamı gözdən qaçırmadan milli dəyər, atribut və keyfiyyətlərimiz, adət-ənənələrimiz və fəxrimiz olan həmyerlilərimiz haqqında dərslikdə məlumat verdiklərinin şahidi oluruq. Bundan əlavə, mənəvi dəyərlər, insan hüquqları, tolerantlıq və dözümlülük, şəxsi və sosial məsuliyyət kimi ümumbəşəri dəyərlər də dərslikdə öz əksini layiqincə tapmışdır.

**Problemin aktuallığı.** Milli dəyərlərimizdən biri də dəyər, adət-ənənə və mentalitetimizin sonrakı nəslə öyrədilərək dəyərlərimizi qoruyub saxlamaqdır. Bunun üçün ən mühüm və məqsədəuyğun vasitələrdən biri kitablar, məktəbli dərs vəsaitləri hesab olunur.

**Problemin elmi yeniliyi.** Bu məqalədə 7-ci sinif ingilis dili dərsliyi milli və ümumbəşəri dəyərlər mövzusunda gözdən keçirilir.

**Problemin praktiki əhəmiyyəti.** Məqalə tələbələr, doktorantlar, dissertantlar və gənc tədqiqatçılar üçün əhəmiyyətli olacaqdır.

**Ədəbiyyat:**


1. Paşayev, Ə.X. Pedaqogika. / Ə.X. Paşayev, F.A. Rüstəmov. -Bakı: Çaşıoğlu, -2002. -512 s.
2. Kurikulum elmi-metodik jurnal, 15-ci cild, 2022-ci il (oktyabr-dekabr), N4 (60)
3. Heydərova, K. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün İngilis dili (əsas xarici dil) fənni üzrə dərslik. / K. Heydərova G. Qurbanova, S. Mammadova. -Bakı: Şərq-Qərb" ASC, -2022, -160 s.
4. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. -Bakı: Maarif, -2015, -104 s.
5. Qurbanov P. Dəyərlər. Bakı, Xalq qəzeti.-2009.-15 mart.-S.8.
6. Ömərov V**.** F.ü.f.d. dos. Ümumbəşəri dəyərlər
7. Qasımova L. P.ü.e.d. Ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi (V-IX siniflərin ədəbiyyat və Azərbaycan tarixi fənləri üzrə) -Bakı: BDU, -2005. -302 s.
8. Qəhrəmanova S. Xarici dil dərslərində şagirdlərin vətənpərvərlik tərbiyəsi (ingilis, alman, fransız dilləri materialları əsasında). -Bakı: ADPU, 1994, -140 s.
9. "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2020-ci il tarixli 67 nömrəli qərarı https://e-qanun.az/framework/44610
10. "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli qərarı https://e-qanun.az/framework/46052
11. https://sabahinalimleri.edu.az/index.php/elmi-yenilikler/item/57-azaerbaydzanl-zhaendzin-ikhtiras-dunyan-heyraetlaendirdi.html


**E-mail:** shahnaz.aliyeva.aghasamad@bsu.edu.az

**Rəyçilər:** *ped.elm.dok., prof.* **L.N. Qasımova**
*ped.elm.dok., dos.* **E.Ə. Mollayeva**
**Redaksiyaya daxil olub:** 31.05.2023-cü il